LİON SECURİTY MMC -LS-D-S-0006 -000

# SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Lion security şirkəti əməkdaşlarını təhlükəsiz, təminatlı iş sahəsi ilə təmin etməyi öz öhdəsinə götürür. Məsuliyyət, qarşılıqlı hörmət və etik normalara riayətetmə, Lion security şirkətinin fəaliyyəti ilə bağlı siyasət və prosedurlarının əsas şərtlərindəndir.

Buna görə də Lion security şirkəti, S və ƏM üzrə fəaliyyətini aşağıdakılar vasitəsilə davamlı şəkildə təkmilləşdirməyi öz öhdəsinə götürür:

- Qəza və hadisələrin, xəsarətlərin və sağlamlığa dəyən zərərin qarşısının alınması.
- İşçilər və mühafizə etdiyi təşkilatın heyəti üçün müvafiq və təhlükəsiz iş yerinin təmin edilməsi.
- S və ƏM üzrə fəaliyyət haqqında açıq şəkildə məlumatların verilməsi.
- Qanunun müvafiq tələblərinə və şirkətin tərəfdar çıxdığı və S və ƏM ilə bağlı təhlükələrə aid digər tələblərə riayət olunması.
- Bu məqsədlər üzrə hərəkət edərək, Lion security aşağıdakıları öz öhdəsinə götürür:
- Məsuliyyət və peşəkarlığa əsaslanan idarəçilik nümayiş etdirmək və bunu digərilərindən tələb etmək.
- S və ƏM ilə bağlı qarşıya yüksək, lakin real məqsədlər qoymaq və həmin məqsədlərə nail olunması istiqamətində görülən işlərin monitorinqini aparmaq.
- Sağlamlıq və əməyin təhlükəsizliyinin yaxşılaşdırılması üçün, qarşıya məqsəd və hədəflər qoymaq, S və ƏM üzrə fəaliyyətimizin monitorinqini aparmaq və açıq şəkildə məlumatlar vermək.
- Fövqəladə vəziyyətlərə hazırlıq və gözlənilməz hallarda fəaliyyət planlarının diqqət mərkəzində olmasını, onlara yüksək prioritet məsələ olaraq yanaşılmasını və istənilən qəza və hadisələr barəsində vaxtında və səmərəli tədbirlərin görülməsi üçün müntəzəm qaydada yoxlanılmasını təmin etmək.
- Sağlamlığın və əməyin təhlükəsizliyinin qorunması məqsədilə, müvafiq qanun, siyasət, təlimat və göstərişlərin tərtib edilməsi və ya təkmilləşdirilməsi işində hökumət və nəzarət orqanları ilə birgə çalışmaq.
- S və ƏM məqsədlərinə nail olmağı təmin etmək üçün, müvafiq resurslar ayırmaq.
- Hər bir işçinin S və ƏM üzrə vəzifə və öhdəliklərini müəyyən etmək və müvafiq təlimlər keçirmək.
- Təhlükələri müəyyən etmək, onlarla bağlı riskləri qiymətləndirmək, risklərin azaldılması və nəzarətdə saxlanılması üzrə tədbirləri müəyyən etmək və həyata keçirmək;
- OHSAS 45001:2018 standartının tələblərinə əsaslanan S və ƏM idarəetmə sistemini daim təkmilləşdirmək və mühafizə xidmətlərini əhatə edən sahələr üzrə peşə sağlamlığını və əməyin təhlükəsizliyini təmin etmək.
- Bu prinsiplərin qəbul edilməsi və fəaliyyət zamanı tətbiq edilməsi, müştərilərimizə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

**Vüqar Məmmədov**

**Direktor**

**01 İyun 2023**